Azərbaycanın İndoneziyadakı səfirliyindən AzərTAc-a bildirmişlər ki, avqustun 4-də bu ölkənin Xarici İşlər Nazirliyinin "2008-ci il İndoneziya İncəsənəti və Mədəniyyəti Təqaüdü" proqramının açılışı olmuşdur .

2003-cü ildən başlayaraq hər il İndoneziya dili, tarixi və mədəniyyətinin öyrənilməsi və ölkənin təbliği məqsədi ilə təşkil olunan proqramda ilk dəfə olaraq Azərbaycan Dillər Universitetinin üç tələbəsi - Elmar İsgəndərov, Günel Bayramova və Ülkər Qafarlı iştirak edirlər. Ümumilikdə isə Proqramda 30 ölkədən 51 gənc iştirak edir.

Üç ay davam edəcək proqram çərçivəsində iştirakçılar İndoneziya Xarici İşlər Nazirliyinin Təhsil və Təlim Mərkəzində, Bandunq (Qərbi Yava), Denpasar (Bali), Solo (Mərkəzi Yava) və Coqcakartada bu ölkənin tarixi, incəsənəti və mədəniyyəti ilə tanış olacaq, İndoneziya dilini və yerli dilləri öyrənəcəklər.

Tədbirdə Azərbaycanın İndoneziyadakı səfiri İbrahim Hacıyev iştirak etmişdir.